Həmçinin Dədə Ələsgərdə təsadüf etdiyimiz "qadan allam", "gözü qalmaq", "həsrət çəkmək", "can qurban", "qana batmaq", "od salmaq", "can almaq", "qulaq vermək" kimi frazeoloji birləşmələrə Mahirə Nağıqızı poeziyasında da rast gəlmək mümkündür.

Poetik mətnlərin əsas elementi sayılan obrazlılığın fonetik, leksik və qrammatik göstəriciləri də hər iki söz sərrafında etnolinqvistik planda ortaq, ifadə və məzmun, üslub baxımından fərqlidir.

İstər Aşıq Ələsgərin, istərsə də onun davamçısı, varisi hesab edilən Mahirə Nağıqızının yaradıcılığında ortaq semantik, leksik elementlərin tədqiqini bir elmi məqalə çərçivəsinə sığışdırmaq, məzmununda dərin bir el kədəri, bənzərsiz təbiət lövhələri, gözəllik təsvirləri əks etdirən yüzlərlə sənət əsərini izah etmək mümkünsüz görünür, lakin əminəm ki, Dədə Ələsgər yaradıcılığına müraciət edən hər bir oxucu, tədqiqatçı bu iki sənətkar arasında Dədəm Qorquddan süzülüb gələn görünməz bağlılığı sezəcək, duyacaq və dəyərləndirəcəkdir...

## ƏDƏBİYYAT/REFERENCES

1. Adım Ələsgərdi... (2024). – Bakı: "Elm və Təhsil". – 584 s.
2. Aşıq Ələsgər (1988). Tərtib edən, ön sözün və qeydlərin müəllifi İ.Ələsgərov. – Bakı: "Yazıçı". −184 s.
3. Aşıq Ələsgər (2004). Əsərləri. – Bakı: "Şərq-Qərb". – 400 s.
4. Aşıq Ələsgər (1999). Əsərləri, dastan-rəvayətlər, xatirələr... /Tərtib edən, ön sözün və qeydlərin müəllifi İ.Ələsgər. − Bakı: "Şərq-Qərb". – 578 s.
5. Hüseynov, M. (2017). Aşıq Ələsgərin söz ümmanı. – Bakı: "Elm və Təhsil". – 312 s.
6. Hüseynov, M. (2020). Estetik qayə və poetik təkamül. – Bakı: "ADPU nəşriyyatı". – 300 s.
7. Nağıqızı, M. (2020). Onun daş nağılı. − Bakı: ADPU nəşriyyyatı. – 412 s.
8. Tanrıverdi, Ə. (2019). Dədəm Qorqudun sözü. – Bakı: "Elm və Təhsil". – 538 s.

**Məqalə tarixçəsi**
*Daxil olub* *18.02.2026*
*Qəbul edilib* *07.03.2026*
*Nəşrə tövsiyə edib* *Muxtar İmanov*
*filologiya elmləri doktoru, professor*

*https://doi.org/10.30546/114578.2026.3015.231*

# ORTA ƏSR ƏRUZ VƏ HECA VƏZNİNİN İNKİŞAFINDA ŞAH İSMAYIL XƏTAİ POEZİYASNIN TƏSİRİ

**Ləman Osmanova**
*doktorant*
*Naxçıvan Dövlət Universiteti*
*https://ORCID.org/0009-0005-4807-3460*
*leman.osmanova@gmail.com*

## Xülasə

Azərbaycanın orta əsrlər ədəbiyyatı əsasən iki istiqamətdə − əruz vəznli divan və təhkiyə ədəbiyyatı və heca vəznli ozan-aşıq ədəbiyyatı istiqamətində formalaşıb inkişaf etmişdir. Bu proses həm də anadilli mənzum ədəbiyyatın yüksəlişi dövrü idi. Belə bir dövrdə Azərbaycan Səfəvilər dövlətinin qurulması mədəniyyət və incəsənət sahəsindəki milli-mənəvi düşüncə metodunun da əsasını qoymuş oldu. Səfəvilər dövlətinin qurucusu Şah İsmayılın "Xətai" təxəllüsü ilə qələmə aldığı əruz və heca vəznli şeirləri bu prosesin, demək olar ki, önündə gedirdi. Xətai öz sələfləri olan Qazi Bürhanəddin, Seyid İmadəddin Nəsimi kimi şairlərdən təsirlənərək, xələfləri sayılan Məhəmməd Füzuli, Seyid Əzim Şirvani kimi qələm sahiblərinə də yol göstərmiş oldu. Eyni zamanda, onun heca vəznli şeirləri Azərbaycan aşıq ədəbiyyatının əsasını qoyan amillərdən birinə çevrildi.

**Açar sözlər**: şeir, qəzəl, əruz, Xətai, aşıq, xalq, ozan, sufi, dövlət, milli.

# THE INFLUENCE OF THE POETRY OF SHAHA ISMILA HATAI ON THE DEVELOPMENT OF MEDIEVAL ARUZIAN AND SYLLABIC POETRY

**Leman Osmanova**
*Nakhchivan State University*

## Abstract

Medieval Azerbaijani literature primarily developed along two directions: the divan and narrative literature written in the aruz (quantitative) meter, and the folk-poet (ozan-ashiq) literature composed in the syllabic (heca) meter. This period also marked the rise of vernacular poetic literature. During this era, the establishment of the Safavid State of Azerbaijan laid the foundation for the national-spiritual methodology in culture and art. The poems of Shah Ismail,

written under his pen name “Khetai”, in both aruz and syllabic meters, were at the forefront of this literary process. Influenced by his predecessors, such as Qazi Burhaneddin and Seyid Imadeddin Nesimi, Khetai also guided subsequent poets considered his successors, including Muhammad Fuzuli and Seyid Azim Shirvani. At the same time, his poetry in the syllabic meter became one of the foundational elements of Azerbaijani ashik (folk-poet) literature.

**Key words:** Poetry, ghazal, aruz, Khatai, ashug, folk, ozan, Sufi, state, national, etc.

## ВЛИЯНИЕ ПОЭЗИИ ШАХ ИСМИЛ ХАТАИ НА РАЗВИТИЕ СРЕДНЕВЕКОВОЙ АРУЗСКОЙ И СЛОГОВОЙ ПОЭЗИИ

**Ляман Османова**
*Нахичеванский государственный университет*

**Резюме**

Средневековая азербайджанская литература формировалась и развивалась, в основном в двух направлениях: диванная и повествовательная литература в размере аруз и озан-ашугская литература в народном стиле. Этот процесс также был периодом становления народной стихотворной литературы. В этот период создание азербайджанского государства Сефевидов также заложило основу национально-духовного метода мышления в области культуры и искусства. Стихи, написанные в арузе и народном стиле основателем Сефевидского государства Азербайджана Шахом Исмаилом под псевдонимом «Хатаи», были едва ли не в авангарде этого процесса. Под влиянием своих предшественников, таких поэтов, как Гази Бурханеддин и Сейид Имадеддин Насими, Хатаи также указал путь своим последователям, таким как Мухаммед Фузули и Сейид Азим Ширвани. В то же время его стихи, написанные в народном духе, стали одним из факторов, заложивших основу азербайджанской ашугской литературы.

**Ключевые слова:** Поэзия, газель, аруз, хатаи, ашуг, народная, озан, суфийская, государственная, национальная и др.

### Giriş/Introduction

Türk dünyasının mədəni dəyərlər sistemində özünəməxsus yeri olan Azərbaycan türkləri Şərq və dünya tarixinə çox böyük və əhəmiyyətli şəxsiyyətlər, eyni zamanda da nəhəng ədəbi, elmi əsərlər bəxş etmişlər. Səfəvilik

dünyagörüşü və onun yüksək nöqtəsi olan Azərbaycan Səfəvilər dövləti Azərbaycan türklərinin tarixində xüsusi və həlledici rola malik olmaqla xalqın formalaşmasında mühüm rol oynamış, Azərbaycan türklüyünün və azərbaycançılıq ideologiyasının yaranmasında əvəzsiz yer tutmuşdur.

Şah İsmayıl Azərbaycandakı dövlətlərin zəiflədiyi, daxili çəkişmələrin çoxaldığı bir zamanda Azərbaycan torpaqlarını birləşdirib, ərazisini genişləndirib qüvvətli bir dövlət yaratdı. Bu qüdrətli hökmdar həm də çox istedadlı şair, fikir adamı idi. Yaratdığı əsərlərdən bəlli olur ki, o təkcə gözəl şeirlər müəllifi deyil, həm də qədim türklüyün, fəlsəfənin, təsəvvüfün, irfanın, sufiliyin daşıyıcısıdır. Tarixdəki nadir insanlardandır ki, həm sultan, həm dərvişdir.

Azərbaycan Səfəvilər Dövlətinin qurucusu, böyük dövlət xadimi, şair, Şeyx oğlu Şah İsmayıl Xətai öz ideyası və dahiyanə strateji məfkurəsi ilə Azərbaycan, eləcə də dünya dövlətçilik tarixinə fenomenal bir şəxsiyyət olaraq daxil olmuşdur. "*XV əsrin əvvəllərində İranda Səfəvi xanədanının yüksəlişi yalnız İranın özü və yaxın qonşuları üçün deyil, eyni zamanda bütün Avropa üçün ən böyük tarixi əhəmiyyəti olan bir hadisə idi*" [Hinz, 1992:1].

Bu fenomenin əsas qaynağını onun ideoloji-mənəvi bazası ilə siyasi dünyagörüşünün, eləcə də müəllifi olduğu nəfis poeziya örnəklərinin sıx vəhdət şəklində mövcud olması təşkil edir. Doğma Azərbaycan türkcəsində yazıb-yaradan Şah İsmayıl Xətainin bütöv şəxsiyyəti Şərq təsəvvüf fəlsəfəsindəki "kamil insan" formulunun birbaşa təsdiqi və örnəyi olaraq meydana çıxır.

Şah İsmayıl Xətayi Azərbaycan dilinin, mədəniyyətinin, dövlətçiliyinin inkişafında müstəsna rolu olan nadir şəxsiyyətlərdəndir. Şah Xətayi gözəl türkcəmizdə əruz vəznində şeirlər yazdığı kimi, heca vəznində də bayatılar, gəraylılar, qoşmalar, varsağılar yazırdı. "*Azərbaycan Səfəvi Dövlətinin yaradıcısı kimi böyük şöhrət tapan Şah İsmayıl Xətayinin siyasi-ictimai fəaliyyəti Həsənoğlu, Nəsimi, Kişvəri, Qazi Bürhanəddindən sonra anadilli poeziyamızın inkişafında xüsusi mövqe tutmasıdır. Orta əsrlərdə saray şairlərinin xalq yaradıcılığı nümunələrinin ədəbi növlərinə barmaqarası münasibəti, eləcə də xalq musiqisinə əhəmiyyət verməmələri məlum həqiqətlərdəndir. Sarayın tapşırığı ilə təzkirə yazan müəlliflər xalq yaradıclığı haqda ya səthi yazır, ya da bu dəyərlərə laqeyd yanaşırdılar. Lakin Səfəvilərin hakimiyyəti dövründə xalq yaradıcılığına və onu ədəbi növlərinə ciddi diqqət yetirilmişdir. Xətayinin özü heca vəznində lirik qoşma, varsağı və gəraylılar yazmışdır. Xətayidən sonra isə*

*ədəbi janr kimi saraya ayaq açan bayatı və varsağılar sadə şeir cərəyanının rəvaclanmasına kömək etmişdi*r" [Rəhimov, 2022:34-49].

Onun irfani şeirləri Ərdəbildən Bağdada, Anadoludan Balkanlara kimi dərvişlər tərəfindən yayılır, xalqın dilinin əzbərinə çevrilirdi. Xətayinin heca şeirlərinin təsiri xalq arasında o qədər güclü idi ki, özündən sonra "Xətayi" məxləsi ilə şeirlər yazılir, dərvişlər tərəfindən "Şah" deyə müraciət edilərək onun şəninə çoxlu nəfəslər, avazlar oxunurdu. Anadoludan üzü Ərdəbilə tərəf "Açılın qapılar, Şaha gedəlim" deyən Xətai aşiqləri, Səfəvi müridləri hər tərəfə yayılırdı. Böyük şair M.Füzuli özünün "Bəngü Badə" əsərini Şah Xətayiyə ithaf etmiş və onu bu əsərində öymüşdür.

*Məclisəfruzi-bəzrəgahi-Xəlil,*
*Cəmi-əyyam Şah İsmayıl.*
*Ondan asudədir qəniyyü gəda,*
*Xəllədallahü mülkəhü əbəda.*
*Ol ki, cami-mey olalı bünyad,*
*Qədəh ondandır, ol qədəhdən şad* [Hinz, 1992:231].

Füzuli yaradıcılığına diqqət etdikdə görürük ki, o, Xətai poeziyasından xeyli bəhrələnmiş, ona nəzirələr yazmış, iqtibaslar etmişdir. Məsələn, Xətainin məşhur –

*Vədeyi-vəsl edəli bir qılca qaldı ahımız,*
*Göylərə irsə iribdir naləvü əfqanımız,*
*Yola baxmaqdan çıxıbdır dideyi-giryanımız,*
*Xanı ay zalım, səninlə əhdimiz, peymanımız* [Xətai, 2004:301]

misraları ilə başlayan mürəbbesinə M.Füzuli oxşar rədif və qafiyələrlə iqtibas etmişdir.

*Qeyr ilə hər dəm nədir seyri-gülüstan etdigin,*
*Bəzm edib, xəlvət qılıb, yüz lütfü ehsan etdigin,*
*Əhd bünyadın mürüvvətdirmi viran etdigin,*
*Hanı ey zalım, bizimlə əhdü peyman etdigin* [Füzuli, 2005:147].

Onu da qeyd edək ki, Füzuli Anadolu ələvi-qızılbaşları arasında "Yeddı ulu ozan"dan biri sayılır. Bu barədə prof. Ə.Daşqının qeydlərində oxuyuruq: "*Füzuli Ələvilər arasında qəbul edilən yeddi böyük ozandan biridir. O özünün sahib olduğu və sürdürdüyü müstəqil yerini bu yeddi ozan arasında var etməkdədir. Bu yeddi ozandan Nəsimi, Virani və Yəmini Hürufilik təliminə bağlıdır. Şah Xətai, Pir Sultan Abdal və Qul Himmət isə Ərdəbil təkyəsinə*

*bağlıdırlar. Göründüyü kimi, Füzuli bu sıralamada özünəxas bir yer tutmuşdur*" [Taşğın, 2010:300-302].

Xətayinin xalq arasından saraya apardığı və şeirlərində Xətayini "pirim", "mürşidim" deyə adlandıran Aşıq Qurbani ona sadə dildə şeirlər yazır, onu mədh edirdi. Aşıqlar tərəfindən Xətayinin adına "Şahsevəni", "Baş Divani" kimi havalar yaranır, xanəndələr tərəfindən onun şəninə muğamlar oxunurdu. Bu gününmüzə qədər gəlib çıxan "Bayatı-Qacar" muğamında "Zəminxarə" və "Mavərənnəhr" şöbələri arasında "Şah Xətayi" guşəsi vardır.

Özündən əvvəlki ürfan və təsəvvüf ədəbiyyatı nümayəndələrinin, o cümlədən Nizami Gəncəvi, Əfzələddin Xaqani, İmadəddin Nəsimi kimi söz ustalarının bədii-fəlsəfi irsini davam etdirən Şah İsmayıl Xətayi "Kitabi-Dədə Qorqud"la başlayan türk dastançılıq ənənələrinin yeni mərhələsinin də əsasını qoydu. Bu ənənəni davam etdirən Miskin Abdal, Dirili Qurban, Tufarqanlı Abbas, Xəstə Qasım kimi xalq ozanları səfəvilik dünyagörüşünün və birbaşa Şah Xətainin mənəvi-ruhani irsinin davamçıları və daşıyıcıları idilər. Türkdilli orta əsr ədəbiyyatında həm heca, həm də əruz vəznində yazan, daha dəqiq desək, həm elitar saray bədii estetikasına, həm də eyni gücdə, eyni enerjidə xalq şeirinə -- ozanlığa, aşıqlığa sahib olan ilk böyük türk şairi də məhz Şah İsmayıl Xətayidir. Bu barədə S.P.Pirsultanlı yazır: "Aşıqlar Xətayinin nəinki qoşmalarını, hətta qəzəllərini sazda oxumağa başlamışlar. Divani şeir şəkli onun qəzəlləri əsasında formalaşıb ortaya çıxmışdır. Aşıqlar hətta məclisi Şah İsmayıl Xətayinin dini şeiri olan tövbənamələri ilə açırdılar" [Pirsultanlı, 2010:9].

Azərbaycan aşıq sənətinin banilərindən sayılan və Şah Xətai tərəfindən saraya gətirilən Aşıq Qurbani öz mürşidi-kamilinə − Səfəvi sultanına müraciətlə yazırdı:

*Yerlə göy yox ikən, bir nəzər qıldın,*
*Əritdin gövhəri, dürr eylədin, şah,*
*Yox yerdən aləmi müxtəsər etdin,*
*Cəmalın qəndildə nur eylədin, şah.*

*Gətirdin kəlamı cümlə cahanə,*
*Qırxları göstərdin əhli-ürfanə,*
*Peyğəmbərə xitabın gətdin cahanə,*
*Həbibin söhbətin şur eylədin, şah.*

*Dirili Qurbaniyə gətirdin indi,*
*Boynumdadır məhəbbətin kəməndi.*
*Dərya üstündə oynatdın səməndi.*

*Özün Cəbrayıla pər eylədin, şah* [Qurbani, 1990:131].

Onu da qeyd edək ki, Şah Xətayi şeirlərinin kəlam kimi oxunduğu Güney Azərbaycan təkyələrində son misradakı "pər" sözü "pir" kimi oxunur. Biz eyni fikrə Aşıq Ələsgərdə də rast gəlirik:

*Ələsgərə nişan verən almanı,*
*İslam edən Qənbərini, Salmanı,*
*Musaya öyrədən Turda kəlməni,*
*Cəbrayıla ustad olan ya Əli* [AƏ, 2004:80].

Qeyd edək ki, Qurbaninin "şah" rədifli, Ələsgərin isə "Əli" rədifli qoşmalarındakı müraciət qızılbaş və əhli-həqq nəzəri təlimlərinə əsasən eyni şəxsə müraciətdir. Şah Xətai də öz şeirlərinin birində "Mürtəza Əli zatlıyam" deməklə, məhz bu məsələni vurğulayır. "*Şah Şahi-Mərdan Əlini bir anma kimi görünür. Fəqət, Şah İsmayılın zamanında bu, Əlinin təcəllası, ruhani "şah", Şah İsmayılı, yəni əsrin şahını bir xatırlama olurdu*" [Melikoff, 1993:40]. Qeyd etməliyik ki, haqqında bir çox yerdə bəhs etdiyimiz əhli-həqlərdə Hz. Əli obrazı xüsusi çəkiyə və konseptə malikdir. Bu firqənin fəlsəfi təlimlərində həmin obraz ümumiləşmiş insan obrazıyla, daha doğrusu, insan − Tanrı vəhdətiylə birlikdə asossiasiya olunur. Görkəmli şərqşünas alim İ.P.Petruşevski "Əhli-Haqq və ya Əli-ilahi" məqaləsində yazır: "*Dünya və insan, Tanrının beş ardıcıl nurunun nəticəsidir. Tanrı bütün kainatı əhatə etməkdədir. Tanrı, daim var olan Əli ilə ayrılmaz bir şəkildə bağlıdır. Əhli-Həqqə görə, Əli Qulat (insanı ilahi məqamda görmək – L.O.) tipli təriqətlərin böyük əksəriyyətinin düşündüyü kimi, sadəcə Adəmdə, İbrahimdə, Musada, İsa Məsihdə və Məhəmmədə deyil, həm də ümumiyyətlə bütün peyğəmbərlərdə və daha sonra imamlarda və övliyalarda davamlı olaraq təcəlla etmişdir. Səfəvi Dövlətinin qurucusu olan I Şah İsmayılı Tanrı-Əlinin təcəllası zənn edirlər (onlar hələ Şah İsmayılın öz zamanında bu düşüncəyə qapılmışdılar)* [Musalı, 2013:453].

Şah İsmayılın səvəfilik ideologiyasını əks etdirən şeirləri özündən əvvəl yaşamış müxtəlif təriqət şairlərinin (xüsusilə hürufi şairləri) poetik nümunələrindən müəyyən qədər təsirlənsə də, türk divan ədəbiyyatında tamamilə yeni mərhələ təşkil edir. Təriqət şeirləri Şah Xətayi yaradıcılığında fərqli bir üslubda qələmə alınmışdır. Belə ki, türkdilli orta əsr ədəbiyyatında həm heca, həm də əruz vəznində yazan, daha dəqiq desək, həm elitar saray bədii estetikasına, həm də eyni gücdə, eyni enerjidə xalq şeirinə − ozanlığa, aşıqlığa sahib olan ilk böyük türk şairi də məhz Şah İsmayıl Xətayidir.

Buradan çıxış edərək söyləmək istərdik ki, onun divan şeirləri ilə ozan-aşıq şeir nümunələri bənzər, hətta eyni mənaları ifadə etsə də, onların arasındakı "mərifət" və "həqiqət" ayrılıqları aydın görünür. Məsələn, onun bir qəzəlinə nəzər salaq:

*Hüsn ilə ziba imişsən, Ya Əli, səndən mədəd,*
*Görk içində " ba" imişsən, Ya Əli, səndən mədəd.*

*Eşq ilə məşuqu aşiq səndə olmuşdur zühur,*
*"Sirri-ma övha" imişsən, Ya Əli, səndən mədəd.*

*Eşq oxurlar adını rahi-həqiqətdə sənin,*
*Eşq ilə şeyda imişsən, Ya Əli, səndən mədə*d [Xətayi, 2005:44]

Başqa bir heca şeiri ilə müqayisəli təhlil vermədən öncə təqdim edilən nümunədəki son beytə diqqət yetirək. Şah Xətai bu beytdə "rahi-həqiqət" ifadəsini işlədir və deyir ki, Əlinin adı (Hz. Əli ibn Əbu Talib) həqiqət yolunda eşq olaraq keçər, bu adla "şeyda" olar. Ürfani lüğətlərdə "şeyda" kəlməsi məşüqunun gizli sirlərini açıb ortaya tökən aşiqə verilən addır. Şair Əlinin sirrini yalnız eşqin adıyla aça bilər. Lakin burada "həqiqətin" adı çəkilsə də, bu qəzəl də digərləri kimi sırf ürfanidir, yəni təsəvvüfün "mərifət" qatına aidir.

İndi isə onun heca vəznindəki şeirlərindən birinə nəzər salaq:

*Könlünə gətirmə şəkk ilə güman,*
*Seyyid Nəsimiyə de ol, oldu şan.*
*Tanrı ilə min bir kəlam söyləşən,*
*Əli Mədinədə Musa Turdadır.*

*Şəriət yolunu Məhəmməd açdı,*
*Təriqət gülünü Şah Əli seçdi.*
*Şu dünyadan neçə yüz min ər keçdi,*
*Onlar ittifaqda Mehdi yoldadır* [Xətayi, 2015:315].

Göründüyü kimi, hər iki şeir örnəyinin hədəfi, bəddi şəkildə ifadə etsək, qəhrəmanı Hz. Əlidir. Lakin qəzəldəki əruz ahənginə tabe olan bədii irfani estetika ilə heca şeirindəki sərt bucaqlar mənada da öz fərqliliyini göstərir. Qəzəldəki mənalar daha ehtiyyatlı, daha məsafəli şəkildə ifadə edilir. Məsələn, Şah Xətai yuxarıdakı qəzəldə "həqiqət"in adını çəksə də, həqiqət mərhələsinə aid edilən ozan-aşıq şeiri nümunələrində Əlinin adı "eşq" olaraq deyil, "Haqq-Allah" olaraq keçir. Bu baxımdan Şah İsmayıl Xətainin dövrünə yaxın yaşamış təbrizli əhli-həqq kəlamxanı Beyrək Qışçıoğlu yazırdı:

*Məhəmmədin gəldiyini min il öncə bilirdim,*
*Əli adı Allah imiş. mən Əli yarə çəkdilər* [Murtezaoğlu, 2011:51]

Xətai qəzəlləri əruz vəznində yazılsa da, bu mənzumələr səfəvi müridləri arasında zikr və şüar olaraq qəbul olunurdu. Xüsusilə də, onun döyüş ruhlu bir neçə şeiri qəzəldən çox xalq üslubundakı poetik nümunələrə bənzəyir. Həmin qəzəllərin daha lakonik və türk dilinin ahənginə uyğun bəhrlərdə yazılması da təsadüfən olmamışdır. Xətai divanındakı bir çox qəzəllər 5 və yaxud 7 beytdən ibarətdir. Qeyd edək ki, Xətaiyə qədər divan ədəbiyyatında bu qədər qısa həcmli qəzəllərə demək olar ki, rast gəlinmir. Qənaətimizə görə, bu poetik metod səfəvi müridlərinin həmin şeirləri tez və aydın şəkildə mənimsəməsi və ümumiyyətlə Xətai qəzəllərinin sadə xalq arasında geniş yayılması üçün idi. Məsələn, Xətai poeziyasında ən çox istifadə edilən əruz bəhrlərindən biri həzəc bəhrinin məfAİlün, məfAİlün, fəUlun qəlibidir:

*Mənəm kim, canü dildən Heydəriyəm,*
*Həbibi-zül-cəlalın çakəriyəm.*

*Qulami-xanədani-Əhmədəm mən,*
*Əlinin Qənbərinin Qənbəriyəm.*

*Həsən şəhrində məskən tutdu könlüm,*
*Hüseynin həm kəminə kəmtəriyəm.*

*Mühibbəm, aşiqəm Zeynəlibadə,*
*Mühəmməd Baqinin xaki-dəriyəm...*

*Xətaiyəm bu gün meydan içində,*
*Behəmdüllah ki, şahın ləşkəriyəm* [Rıhtım, 2013:239].

İxtisarla təqdim etdiyimiz bu qəzəl ilk baxışda peyğəmbər və onun əhli-beytinin mədhiyyəsidir. Lakin həmin dövrün hadisələrini və ümumilikdə səfəvilik ideologiyasının əsas konturlarının sufi-təsəvvüf semantikasıyla bağlılığını nəzərə alsaq, görərik ki, Şah İsmayıl Xətainin bu tip şeirləri adi məzhəbi şeirlər deyil. Bu poetik nümunələr orta əsrlərdə bütün Şərqdə geniş yayılmış sufi-ürfani cərəyanların çox zaman təməl dini dəyərlərlə bir araya gəlməyən fəlsəfi bazası əsasında yaranmışdır. Seyid İmadəddin Nəsiminin hürufi poeziyasından sonra məhz Şah Xətainin səfəvilik ideologiyası üzərində yaranmış anadilli poeziyası əsl Azərbaycan-Türk xalq təsəvvüfünün örnəkləri idilər.

Şah İsmayıl Xətai poeziyası səfəvilik ideologiyasının ədəbi-bədii cəhətdən pik nöqtəsi olmaqla, müxtəlif şeir janrlarında, fərqli ruh və hal məqamlarında, eyni zamanda həm lirik, həm də dramatik əhval-ruhiyyədə qələmə alınan nadir nümunələrdən biridir. Xətayinin həm gizli, rəmzi mənada, həm də açıq-aşkar şəkildə Hz. Əliyə həsr etdiiyi şeirləri Xətaini bir təriqət şairi olaraq ön plana çəkir:

*Əzəldən ta əbəd Heydər gəlibdir,*
*Adəm övladına sərvər gəlibdir...*

*Ki həqdən Zülfüqar oldu Əliyə,*
*Əli qulluğuna Qənbər gəlibdir...* [Rıhtım, 2013:53].

Bəllidir ki, şeir Həzrət Əlinin mədhində yazılmışdır. Lakin bu "Əli" heç də şəriət məqamındakı IV xəlifə Əli ibn Əbu Talib deyil. Şah Xətaiyə qədər və ondan sonra gələn bütün təriqət şairləri bu tip mövzulara mədhiyyəçilik nöqteyi-nəzərindən yanaşmamışlar. Əvvəla, onu qeyd edək ki, Hz. Əlinin mənəvi və batini öndərliyi, şahlığı ilə onun şəxsiyyətinin müqəddəsləşdirilməsi, hətta üluhiyyət məqamına (dini ədəbiyyatda adına "qülüvv" deyilən insanın ilahiləşdirilməsi) çatdırılması xalq təsəvvüfü şəklində özünü biruzə vermişdir. "Sufilərin əksəriyyəti tərəfindən təsəvvüfün əsasında duran ən mühüm şəxsiyyət Hz. Peyğəmbərdən sonra Hz. Əli (r.ə) qəbul edilir. Onun haqqında Hz. Peyğəmbərin "Mən elmin şəhəriyəm, Əli qapısıdır", "Əli kimi fəta (gənc-igid) yoxdur" kimi hədisləri müsəlmanlar tərəfindən Hz. Əlinin (r.ə) rəhbər kimi anlaşılmasına səbəb olmuşdur. Sufilərin inancları da bu istiqamətdədir. Buna görə də sufi təriqətlərinin əksəriyyətinin silsiləsi Hz. Əlidən başlar" [Rıhtım, 2013:14]. Onların vəsf etdikləri "Əli" obrazı məhz sufi-təsəvvüf dünyagörüşündəki "Əli"dir. Bunun qaynağı isə təsəvvüf fəlsəfəsinin dərin və çox zaman gizli qalan qatlarından gəlir. Elə bu düşüncə səfəviliyin şiəlik yox, məhz sufi-ürfani bir cərəyan olduğunu isbat etmək üçün yetərlidir. Bu fikri həm də qədim türk tanrlçılığı və şamançılıq ideologiyası ilə tarixi və mənəvi bağlılıqla da əsaslandırmaq doğru olardı. "Qızılbaşlıqda şamanla dərviş bir-birinə qarışmışdı. Şah İsmayılın din anlayışında yenidən doğulmaq və bu prosesin çoxsaylı olduğu inancı mövcuddur. Özü də Tanrının zatının, dolayısı Əlinin davamlı şəkildə bədənləşmələrindən biri olurdu. Şeirlərində də ifadə etdiyi kimi, o, Əlinin sirri idi" [Melikoff, 1993:188].

*Əzəldən şah bizim sultanımızdır,*
*Pirimiz, mürşidimiz, xanımızdır.*

*Şaha qurban gətirdik biz bu canı,*
*Şahın güfti bizim imanımızdır...*

*Şəhi Haq deyübən girdik bu yola,*
*Hüseyniyüz, bu gün dövranımızdır.*

*Biz iman qullarıyız sadiqanə,*
*Şəhidlik, qazilik nişanımızdır...*

*Xətaiyəm, məvali sirri-Heydər,*
*Şahı Haq bilməyən düşmanımızdır* [Rıhtım, 2013:50].

Yenə də həzəc bəhrinin məfAİlün, məfAİlün, fəUlun qəlibində yazılmış bu mübariz ruhlu qəzəldə biz artıq Xətai dövrünün "şah"ını görürük. Bəzi baxışlara görə, buradakı "şah" elə Şah Xətainin özü, dolayısı ilə səvəfilərin illər boyu zühurunu gözlədikləri Şeyx Heydər oğlu Şah İsmayıldır. Lakin bu barədə fərqli düşüncələr də mövcuddur ki, həmin "şah" Şah Xətainin özünün də müridi olduğu və şeirlərində dəfələrlə adını çəkdiyi əhli-həqq xanədanının "şahı" olan başqa birisi və ya biriləridir. Bütün hallarda, əgər söhbət Xətai poeziyasından gedirsə, o zaman mütləq şəkildə qeyd etmək lazımdır ki, bu poeziya demək olar ki, bütövlükdə səfəvilik dünyagörüşüylə silahlanmışdır.

*Ey Həq əhli, sən sənin cismində beytullahı gör,*
*Hancaru əzm eyləsən, lövhində ərşullahı gör.*

*Adəmin şanında "kərrəmna" dedi nutqi-İlah,*
*Əhli-mənisən, həqiqət "səmmə vəchullahı" gör.*

*Zakirəm, zikr eylərəm, könlümdə Haqdan özgə yox,*
*Natiqəm, nütqi-hidayət, gəl, həbibullahı gör.*

*"Xazini-cənnati-ədnin" dəftərin şərh eyləyən,*
*İblis olma, gəl sücud eylə, bu babullahı gör.*

*Lövhi-məhfuzun Xətai əbcədin qıldı bəyan,*
*Div deyilsən, xatəmin xətmində Fəzlullahı gör* [Xətayi, 1998:53].

Qəzəlin daxilində işlənən "kərrəmna", Qurani-Kərimin İsra surəsinin 70-ci ayəsinə işarədir: "And olsun ki, insan oğlunu kərəm sahibi etdik" [KKM, 2011:309]. Qəzəldə işlənən "səmmə vəchullah" ifadəsi isə yenə də Qurani-Kərimin Bəqərə surəsinin 115-ci ayəsinə işarədir: "Hara dönsəniz Allahın üzü ordadır" [KKM, 2011:23]. Göründüyü kimi, Şah Xətai Quranın elə ifadələrini

şeirə gətirmişdir ki, onları ancaq təsəvvüf elminin təfsirləri ilə anlamaq mümkündür.

Bu qəzəlin son beyti birbaşa hürufiliklə bağlıdır. Öncə onu qeyd edək ki, ürfani poeziyada sıx-sıx rast gəlinən "div" ifadəsi insanın nəfsi anlamına gəlir. Bu ifadə ilə Şah Xətayinin böyük sələfi İmadəddin Nəsiminin şeirlərində də rastlaşırıq:

*Uymadı arif sözünə vaizin,*
*Divə müti olmadı insanımız* [Nəsimi, 2004:12]

Xətayi bu misrada iddia edir ki, əgər sən nəfsi tərk etsən, o zaman "Fəzlullah"ın gerçək mənasını anlarsan. Bu ifadəni Qurani-Kərimin "Cümuə" surəsindəki "zalikə fəzlullahə" – "Bu Allahın fəzlidir" [KKM, 2011:621] ayəsi ilə də əlaqələndirmək olar. Lakin buna qətiyyən şübhə yeri qalmır ki, burada söhbət hürufi təriqətinin banisi, böyük alim və arif Fəzlullah Astrabadi Nəimidən gedir. Şah İsmayıl Xətainin və ümumiyyətlə səfəvilərin inanc sistemində hürufiliyin yeri danılmaz faktdır.

Biz bu faktı bu gün Anadolu ələvi-qızılbaşlarının inanclarında və deyişlərində də eynilə müşahidə edirik. Bu baxımdan Şah İsmayıl Xətainin bu qəzəldəki fikirləri digər şeirləri ilə bərabər səfəvilik ideologiyasının fəlsəfi qatlarını və ideya-mənəvi yönünü tərənnüm edir.

Səfəvilik iseologiyasının mahiyyəti ilk növbədə onun xəlqiliyində, türkçülüyündə, mənəvi saflığında, dünyəviliyində, islamöncəsi əski inanc sistemləri ilə sıx bağlılığındadır. Bütün bunlar Xətai poeziyasında öz əksini tapmış və əsrlərdir ki, varlığını sürdürməkdə davam edir.

Dünən öz sazı ilə "ucalardan uca tanrı" deyən ozanlar bu gün həmin sazla "la ilahə illallah" desə də, ehkamçı dini doktirina bu axına qarşı qulaqlarını və gözlərini yumdu. Buradakı əsas problem vəhdaniyyətin qorunması deyil, bütün dinlərin qorxduğu insan təfəkkürünün azadlığıdır. Bu azadlıq isə şeirlə, musiqi ilə, rəqslə, sazla əldə edilirdi. "Ucalardan uca tanrı" deyiminin sonrakı mərhələdə öz mahiyyətini qoruyaraq "la ilahə illəllah"a çevrilməsi prosesinin ən bariz örnəyi ozanlar ozanı Dədə Qorquddan şahlar şahı, pirlər piri Şah Xətaiyə gəlib yetişən dialektik ardıcıllıqdır. Məntiqi düşnüldükdə ana türkcənin oğuz şivəsində deyilən boylamalar, soylamalar islamdan sonra deyişlərə, semahlara, kəlamlara çevrildi. Burada məsələ yalnız dil birliyi deyil, əsasən böyük bir ulusun, xalqın epik-ruhani, mənəvi-estetik dəyərlər sisteminin özünəməxsus, eyni zamanda vahid prizma altında birləşməsidir.